DOI: https://doi.org/10.36719/2663-4619/115/200-205

**Səadət Bağırova**
Azərbaycan Respublikası DİN-in Polis Akademiyası
UOT KOD 343.3
https://orcid.org/0009-0002-4764-9328
bagirovs799@gmail.com

# Terrorizmin kriminoloji xarakteristikası

## Xülasə

Məqalədə terrorizmin kriminoloji xüsusiyyətləri ətraflı təhlil edilib, onun səbəbləri, yayılma formaları və onu törədən şəxslərin fərdi xüsusiyyətləri kriminoloji baxımdan araşdırılıb. Hazırda terrorizm təkcə yerli deyil, həm də qlobal miqyasda təhlükə yaradan, cəmiyyətin sabitliyinə, dövlətlərin təhlükəsizliyinə, insanların psixoloji durumuna ciddi təsir göstərən ciddi cinayətkar fəaliyyətdir.

Araşdırmalar göstərir ki, terrorizmin yaranmasına və inkişafına səbəb olan amillərə sosial-iqtisadi bərabərsizlik, siyasi qeyri-sabitlik, hüquqi nihilizm, dini dözümsüzlük və etnik münaqişələr daxildir. Bu amillərin vaxtında aşkar edilməsinə və aradan qaldırılmasına yönəlmiş kriminoloji profilaktik tədbirlərin həyata keçirilməsi vacibdir.

Terror aktları törədən şəxslərin yaşı, təhsili, sosial vəziyyəti, psixoloji vəziyyəti və keçmiş təcrübələrinə dair aparılan təhlillər göstərir ki, bu şəxslər daha çox cəmiyyətin aşağı təbəqələrinə mənsub, aqressiv və dağıdıcı düşüncə tərzinə malikdirlər. Onların bu cinayətə cəlb olunmasında sosial şəbəkələr, dini və ideoloji təsirlər mühüm rol oynayır.

Terrorçuluğa qarşı səmərəli mübarizənin təmin edilməsi üçün hüquq-mühafizə orqanlarının fəaliyyəti ilə yanaşı, ictimaiyyətin məlumatlandırılması, informasiya təhlükəsizliyinin təmin edilməsi, gənclərin psixoloji hazırlığının gücləndirilməsi, radikal ideologiyalara qarşı duran alternativ ideoloji modellərin təbliği mühüm amillərdəndir.

Ona görə də terrorun qarşısının alınması kompleks yanaşma tələb edir və bu prosesdə kriminalistikanın rolu danılmazdır. Gələcək tədqiqatlar terrorizmin yeni formalarının müəyyən edilməsinə, texnoloji vasitələrin rolunun araşdırılmasına və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi istiqamətində addımların atılmasına yönəldilməlidir.

***Açar sözlər:*** *terrorizm, kriminologiya, kriminoloji xüsusiyyətlər, terror cinayətləri, terrorçu*

**Saadat Baghirova**
Police Academy of the Ministry of Internal Affairs of the
Republic of Azerbaijan
UOT KOD 343.3
https://orcid.org/0009-0002-4764-9328
bagirovs799@gmail.com

# Criminology Characteristics of Terrorism

## Abstract

The article analyzes in detail the criminological characteristics of terrorism, its causes, forms of spread and individual characteristics of its perpetrators from a criminological perspective. Currently, terrorism is a serious criminal activity that poses a threat not only locally, but also globally, seriously affecting the stability of society, the security of states, and the psychological state of people.

Studies show that the factors leading to the emergence and development of terrorism include socio-economic inequality, political instability, legal nihilism, religious intolerance and ethnic conflicts. It is important to implement criminological preventive measures aimed at timely detection and elimination of these factors.

Analyses of the age, education, social status, psychological state and past experiences of those who commit terrorist acts show that these individuals are more likely to belong to the lower strata of

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

society, have an aggressive and destructive mindset. Social networks, religious and ideological influences play an important role in their involvement in this crime.

In order to ensure an effective fight against terrorism, in addition to the activities of law enforcement agencies, public awareness, ensuring information security, strengthening the psychological preparation of young people, and the promotion of alternative ideological models that oppose radical ideologies are important factors.

Therefore, the prevention of terrorism requires a comprehensive approach, and the role of criminalistics in this process is undeniable. Future research should be directed at identifying new forms of terrorism, investigating the role of technological means, and taking steps to deepen international cooperation.

***Keywords:*** *terrorism, criminology, criminological characteristics, terrorist crimes, terrorist*

## Giriş

Müasir qloballaşma prosesləri bütün dünya birliyini əhatə edərək terrorizmin strukturunda ciddi dəyişikliklərə səbəb olmuş və onu qlobal səviyyəli təhlükəyə çevirmişdir. Terror təşkilatları artıq ən müasir silah və texniki vasitələrə sahib olmaqla yanaşı internetin imkanlarından da istifadə edərək inkişaf etmiş cəlbetmə metodlarına yiyələnmiş və fəaliyyətlərini daha yüksək səviyyədə qurmuşlar. Hazırda terrorizmin strukturunda yeni formalar, o cümlədən ekoloji, kibernetik, kriminal, milli və dini yönümlü terrorizm daha geniş yayılmaqda və əhatə dairəsini sürətlə genişləndirməkdədir (Ulez'ko, 2020, s. 129).

Terrorizm cinayətlərinin əsas amillərinin təhlili kriminoloji analizə daxildir, çünki cinayətin baş vermədən əvvəl qarşısının alınması üçün səbəb və şəraitin erkən mərhələdə müəyyən edilməsi çox əhəmiyyətlidir. Terror cinayətlərinin törədilməsinə səbəb olan müxtəlif amilləri iki əsas qrupa ayırmaq mümkündür: xarici və daxili amillər.

Daxili amillər aşağıdakıları əhatə edir:

- Sosial-iqtisadi amillər: vətəndaşların gəlir səviyyəsinin azalması, cəmiyyət arasında iqtisadi fərqlərin artması, sosial təminatlar sisteminin qeyri-effektivliyi, əhalinin gözləntilərinə uyğun olmayan iqtisadi islahatlar, eləcə də əhalinin mənəvi və mədəni səviyyəsinin enməsi.
- Siyasi amillər: hüquqi nihilizm, dövlətin nüfuzunun və xalqın müsbət dəyişikliklərə inamının azalması, dövlət strukturlarının korrupsiyaya uğraması və digər oxşar faktorlar.
- Dini və milli-etnik amillər: dini dözümlülüyün olmaması, zorakılıq psixologiyasının dini olaraq qəbul edilməsi, millətlərarası dözümsüzlük və digər bu kimi amillər (Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 1999, s. 117).

Terrorçuların şəxsiyyətinin xüsusiyyətlərini anlamaq, onların müəyyənləşdirilməsi, qeydiyyata alınması, fərdi profilaktik tədbirlərin həyata keçirilməsi və antiterror əməliyyatlarının effektiv icrası baxımından olduqca əhəmiyyətlidir. Adətən terrorçular gənc yaşda (25 yaşına qədər) və ya yetkin dövrdə (30-50 yaşına qədər), daimi gəlir mənbəyi olmayan, əsasən orta təhsil alan kişilər olurlar. Onların əhəmiyyətli bir hissəsi keçmiş idmançılardan və millətlərarası və digər münaqişələrdə döyüşlərdə iştirak etmiş keçmiş hərbi qulluqçulardan ibarətdir.

**Tədqiqat**

Terrorçu, əsasən, özünün başqalarından üstün olduğunu düşünən, şəxsi maraqlarını, qisas arzusunu və siyasi qərarlarla razılaşmamağı əsas götürərək cəmiyyətin ümumi mənəvi prinsiplərinə qarşı çıxan zorakı cinayətkardır. Müxtəlif millətlərdən olan terrorçuların fərdi xüsusiyyətləri müxtəlif ola bilər. Məsələn, terror cinayətləri törədən və Qafqaz regionundan olan şəxslər, əsasən, dini ideyalarla, yəni müsəlman nöqteyi-nəzərindən, hər kəsin "doğru" qanunlara uyğun yaşadığı vahid müsəlman dövləti, Xilafət qurulmasını məqsəd qoymuşdular. Eləcə də, dini müsəlman olmayan terrorçuların əksər hallarda dövlətin öz xalqına qarşı göstərdiyi qayğısızlıq və narazılıqları əsas motivləri olmuşdur (Sokolov, 2018, s. 108).

Terror təhlükəsinin artmasına zəmin yaradan amillərin aradan qaldırılması üçün bu növ cinayət fəaliyyətinə qarşı xüsusi kriminoloji profilaktika tədbirlərinin həyata keçirilməsi vacibdir. Cinayətkarlığın qarşısının alınmasına yönəlmiş tədbirlər isə əsasən həmin hüquqazidd əməlləri doğuran səbəb və şəraitin aradan qaldırılmasına istiqamətlənmiş olur.

Cəmiyyət həyatının bütün sahələrində dövlət sabitliyin təmin edilməsində və sadə vətəndaşları terrorçuluğa cəlb edən daxili sosial-iqtisadi və siyasi səbəb və amillərin aradan qaldırılmasında

mühüm rol oynayır. Bu baxımdan, terrorizmin qarşısının alınmasında dövlətin imkanları və təsir mexanizmləri xüsusi əhəmiyyət kəsb edir.

Müasir dövrdə insanlar kiçik yaşlarından etibarən geniş və məhdudiyyətsiz informasiya axını ilə üz-üzə qalırlar. Xüsusilə kütləvi informasiya vasitələrində nümayiş etdirilən zorakılıq və aqressiya dolu səhnələrin mənəvi-psixoloji təsiri son dərəcə zərərli ola bilər. Aqressiv xarakterli kompüter oyunlarının yetkinlik yaşına çatmamış uşaqların psixikasına mənfi təsiri ilə bağlı isə cəmiyyətdə ciddi müzakirələr aparılır.

Zalixanova L.İ. qeyd edir ki: Sosial şəbəkələrin insan həyatındakı rolu günbəgün artmaqdadır. Twitter, Instagram, Google+, Facebook, Vkontakte və Odnoklassniki kimi platformalarda istifadəçilər tez-tez öz şəxsi məlumatlarını paylaşırlar. Bu isə müəyyən bir fərdin tam portretini formalaşdırmağa imkan yaradır və nəticə etibarilə, həmin şəxslərin terrorçu qruplar tərəfindən asanlıqla hədəf alınmasına şərait yaradır (Kapitonova, Romanovskiy, 2015, s. 233).

Bu kontekstdə, informasiya məkanının internet üzərindən müasir monitorinq üsulları ilə izlənməsi məqsədəuyğun hesab olunur. Terror aktları törətmək ehtimalı olan şəxsləri müəyyənləşdirmək və onlara qarşı fərdi xəbərdarlıq tədbirləri həyata keçirmək üçün həmin şəxslərin məqsədyönlü şəkildə axtarılması vacibdir. Əhalinin, xüsusən də, də gənclərin psixoloji hazırlığının və qurbanologiya sahəsində maarifləndirilməsinin təmin edilməsi, terror aktlarının və terrorizmin ictimai həyatdakı mənfi təsirlərini əks etdirən hadisələr fonunda düzgün davranış qaydalarına dair brifinqlərin təşkili, təkcə genişmiqyaslı mənfi nəticələrin qarşısını almağa deyil, eyni zamanda vətəndaşların belə qanunsuz fəaliyyətlərə cəlb olunma ehtimalını azaltmağa xidmət edəcək.

Terror hücumlarının sayı 2002-2007-ci illər arasında artmış, bu da İraqda baş verən şiddətli qarşıdurmalarla əlaqələndirilmişdir. Bu tendensiya 2007-ci ildə yüksək dərəcəyə çatdı, lakin Amerika qoşunlarının sayının artırılması nəticəsində 2007-2011-ci illər ərzində terror hücumlarının sayı azaldı və bu dövrdə terror aktları nəticəsində ölüm hallarının faizi 35% qədər azaldı.

2011-ci ildən 2014-cü ilə kimi qlobal terrorizm hadisələrində artım müşahidə olundu, terrorla əlaqəli ölüm halları artdı. Bu artım Nigeriyada Boko Haramın fəaliyyətinin yenidən güclənməsi, Suriya vətəndaş müharibəsinin başlanması, İŞİD-in yüksəlişi və İraqda şiddətli qarşıdurmaların dərinləşməsi, ilə əlaqələndirilə bilər (Leonov, 2024, s. 162).

Terrorizmin proqnozlaşdırılması olduqca çətindir, çünki o, gözlənilməz şəkildə meydana çıxır, tədricən inkişaf edir və yeni formalarla genişlənir. Media və gündəlik həyat getdikcə daha çox terror hadisələrini işıqlandırır; bu isə cəmiyyət üzərində güclü psixoloji təzyiq yaradır, insanların öz həyatları və gələcəkləri ilə bağlı qorxu və narahatlıq hissini artırır. Terrorizmlə mübarizə üçün bu hadisələrin sistemli və ətraflı şəkildə qeydə alınması və təhlil edilməsi vacibdir. Bu cür qeydiyyat və təhlilin bir hissəsi olaraq, terrorçuların şəxsiyyətinə, onların fərdi xüsusiyyətlərinə, daxili keyfiyyətlərinə və terror fəaliyyətinə başlamalarına səbəb olan motivlərə dair məlumatların toplanması və ümumiləşdirilməsi vacibdir (Damaskin, 2018, s. 78).

Elmi ədəbiyyatda terrorçu şəxsiyyətinə aid müxtəlif kriminoloji portretlər mövcuddur, lakin terrorçu şəxsiyyətin ümumi və universal xarakteristikası hələ müəyyən edilməyib.

Bir çox alimlər hesab edirlər ki, insanın terror qruplarına qoşulmasının səbəbləri onun şəxsi xüsusiyyətlərində gizlənir. Bəzi tədqiqatçılar isə vurğulayırlar ki, terrorizm, əsasən, zorakılığa meyllilik və terrorçuların aqressiya və destruktiv əhval-ruhiyyəsi ilə əlaqəlidir.

Bu cür xüsusiyyətlər bir çox insanlarda müşahidə olunsa da, onların formalaşması tərbiyə, mədəniyyət və mövcud hüquq-əxlaq normaları ilə yönləndirilir. Lakin, terrorçunun şəxsiyyəti yalnız bu amillərin və mexanizmlərin təsiri ilə yaranmır; eyni zamanda, sosial-mədəni mühitin təsiri ilə də formalaşır, bu mühit şəxsiyyətin əsas dəyər prioritetlərini əvvəlcədən müəyyən edir.

Terrorçunun şəxsiyyətinin kriminoloji xarakteristikasını tam və dəqiq müəyyən etmək olduqca mürəkkəbdir, çünki terrorizm fenomeni bir neçə aspekti əhatə edir və insan şəxsiyyəti də müxtəlif təbəqələrdən ibarət olur. Buna görə də, terrorçunun şəxsiyyətini başa düşmək üçün diqqətlə və çox istiqamətli bir araşdırma aparmaq vacibdir (Zalikhanova, 2019).

Bu, həm cinayətlərin aşkara çıxmasında, həm də terrorizm təhlükəsinin artması ilə əlaqədar olaraq, bu gün aktual olan bu cür davranışların qarşısının alınması və düzəldilməsi məsələlərində faydalı ola bilər.

Terrorçu və digər cinayətkarların şəxsiyyətini öyrənmək üçün tətbiq edilən inteqrasiyalı yanaşma yalnız kriminoloji məlumatlarla deyil, həm də sosiologiya, psixologiya, psixiatriya və digər müvafiq

sahələrdəki mütəxəssislərin araşdırma nəticələrinin birləşdirilməsi, təhlil edilməsi və sistemləşdirilməsini əhatə edir.

İnteqrasiya olunmuş yanaşmanın tətbiqi terrorçunun şəxsiyyətini müxtəlif baxış bucaqlarından dərindən təhlil etməyə imkan verir və bu yanaşma özünü həmişə doğruldur. Ümumi psixologiya sahəsində mütəxəssislər, terrorçuların psixoloji xüsusiyyətləri və idrak prosesləri üzərində araşdırmalar aparır, psixiatriya və şəxsiyyət psixologiyası sahəsində isə mütəxəssislər əqli fəaliyyətin xüsusiyyətlərini daha ətraflı tədqiq edirlər.

Sosioloqlar, terrorçuların şəxsiyyətlərinə təsir edən xarici faktorları və onların sosial mühitdəki həyatını, həmçinin terror təşkilatları daxilindəki mövqelərini araşdırırlar. Konfliktoloqlar isə psixoloji və sosioloji tədqiqatlar əsasında sosial münaqişələrin yaranma səbəblərini incələyirlər.

Beləliklə, terrorçunun şəxsiyyətinin tədqiqinə kompleks yanaşma müxtəlif sahələrə aid biliklərin birləşdirilməsi ilə həyata keçirilir və bu, kriminoloji məlumatların toplanması və analiz edilməsini əhatə edir.

Hazırda cinayətkar, xüsusilə terrorçuların şəxsiyyətinin sistem və struktur baxımından təhlilinə dair araşdırmaların aparılması əhəmiyyətli bir tendensiya halını alıb. Müasir kriminologiya, cinayətkarın şəxsiyyətinin öyrənilməsində fərqli yanaşmaları nəzərdən keçirir.

Leonov D.A. iddia edir ki: Terrorizmin kriminal xarakteristikası üçün mühüm meyar cinayətin yeri və vaxtıdır. Çox vaxt terror aktları terrorçuların özləri üçün nisbətən təhlükəsiz hesab edilən yerlərdə baş verir, kamikadzelər istisna olmaqla. Bu, onlara öz şərtlərini diktə etməyə və uğursuzluq halında maksimum ziyan vurmağa imkan verir. Buna əsaslanaraq, çoxlu sayda insanın toplaşdığı istənilən yerdə ictimai təhlükəli nəticələrə səbəb olan terror cinayətləri baş verə bilər. Aparılmış tədqiqat təhlili terror aktlarının baş verdiyi yerlərin üç əsas kateqoriyaya təsnifləşdirilməsinin zəruriliyini təsdiqləyir: ictimai yerlər; əhalinin həyat təminatını təmin edən obyektlər; xüsusi rejimli hərbi obyektlər (Məmmədov, 2022, s. 302).

Cinayətkarlar terror cinayəti törətməyi planlaşdırdıqları yeri təhlil edərək, terror aktları törətmək üçün vaxtı diqqətlə seçirlər. Zamanlamada əsas amillər insanların sayı və maddi ziyanın potensial miqyasıdır. Qlobal terror aktları ilə bağlı araşdırmalar göstərir ki, ən çox gündüz saatlarında, əsasən səhər saat 11:00-dan 16:00-a qədər baş verir. Bu cür hərəkətlər insanların sıx toplaşdığı yerlərin yaxınlığında dayanmış avtomobillərin tez-tez partladığı meydanlarda, eləcə də avtobus və qatar stansiyalarında qeydə alınıb (Məmmədov, 2022, s. 302).

Səhər və axşam saatları, 07:00-dan 10:00-a qədər və 17:00-dan 20:00-a qədər, xüsusən də ictimai nəqliyyat dayanacaqlarında və metroda hücumlar üçün dövrə çevrilir. Bu, oxumağa və ya işləməyə gedən vətəndaşların sayının artması ilə əlaqədardır. Terror faktlarını təhlil etdikdə belə nəticəyə gəlmək olar ki, cinayətkarlar törədilmiş cinayət faktını gizlətmədən, yalnız cinayətdə iştirakını gizlətmək üçün tədbirlər görürlər. Üstəlik, onlar terror aktının və ya terror aktı təhlükəsinin mümkün qədər geniş ictimaiyyətə çatdırılmasını təmin etməyə çalışırlar; yalnız bu halda, onların fikrincə, terror aktının özünün məqsədinə – əhalidə və bütövlükdə cəmiyyətdə qorxu və təşviş hissi yaratmaq – həyata keçəcək (Məmmədov, 2022, s. 303).

XXI əsrdə texnologiyanın sürətli inkişafı bəşəriyyətin həyatını kökündən dəyişdirdi və bir çox sahələrdə inqilabi yeniliklərə səbəb oldu. Bu inkişaflar arasında süni intellekt (AI) texnologiyaları xüsusi yer tutur. Əvvəllər yalnız elmi fantastika ssenarilərində görülən süni intellekt indi gündəlik həyatın ayrılmaz hissəsinə çevrilib. Lakin texnoloji tərəqqinin gətirdiyi faydalarla yanaşı, ciddi təhlükələr də yaranır. Süni intellektin kriminal mühitdə, xüsusən də kriminal fəaliyyətdə istifadəsi təhlükəli tendensiyanın başlanğıcından xəbər verir.

Son illər terrorizmin yeni formaları yaranmış, müasir texnologiyalar və qloballaşma prosesi bu növ cinayətin strukturunda ciddi dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi terror aktları indi təkcə silah və partlayıcı maddələrdən istifadə etməklə deyil, həm də informasiya texnologiyalarından istifadə etməklə həyata keçirilir. Cinayət planlaşdırmasında süni intellektin istifadəsi bu sahədə yeni və son dərəcə təhlükəli mərhələdir.

Bu baxımdan, 2025-ci il yanvarın 1-də Las-Veqasda baş verən hücum xüsusi aktuallıq kəsb edir. ABŞ tarixində ilk dəfə olaraq süni intellekt vasitəsi olan ChatGPT terror hücumunun planlaşdırılması üçün istifadə edilib. Bu hadisə təkcə hüquq-mühafizə orqanlarını deyil, həm də bütövlükdə beynəlxalq təhlükəsizlik sistemini ciddi şəkildə narahat edib və süni intellektin hüquqi, etik və kriminoloji aspektlərinin yenidən nəzərdən keçirilməsini tələb edib.

2025-ci il yanvarın 1-də Las-Veqas şəhərində baş vermiş terror aktı süni intellekt texnologiyalarının cinayət məqsədilə istifadəsinin təhlükəli tərəflərini üzə çıxarmışdır. Məlumata görə, Matthew Alan Livelsberger adlı şəxs Trump International Hotel qarşısında idarə etdiyi Tesla Cybertruck markalı avtomobili partlatmış və nəticədə 7 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Hadisə ilə bağlı aparılan istintaq zamanı müəyyən olunmuşdur ki, cinayətkar bu hücumu planlaşdırmaqda süni intellekt alətlərindən, xüsusilə ChatGPT-dən istifadə etmişdir. Bu fakt, ABŞ-da süni intellektin birbaşa olaraq terror planlamasında tətbiq edildiyi ilk hadisə kimi qeydə alınmışdır.

Livelsberger hücumu daha dəqiq şəkildə planlaşdırmaq məqsədilə ChatGPT-dən istifadə edərək müxtəlif istiqamətlər üzrə suallar vermişdir. O, əsasən aşağıdakı mövzularla maraqlanmışdır:

Partlayıcı maddələrin miqdarı – planlaşdırılan partlayış üçün nə qədər maddə lazım olduğunu hesablamaq üçün süni intellektdən məsləhət almağa çalışmışdır.

Pirotexniki vasitələrin əldə olunması – atəşfəşanlıqların haradan və hansı miqdarda əldə edilə biləcəyini araşdırmışdır.

Texniki işə salma üsulları – partlayıcı maddələrin hansı şəkildə və hansı mexanizmlə aktivləşdirilə biləcəyini öyrənmiş, məsələn, güllənin sürətinin partlayışı işə salıb-salmayacağını sorğulamışdır.

İzlənməmək üçün tədbirlər – hüquq-mühafizə orqanlarının izinə düşməmək üçün anonim rabitə vasitələrinin, xüsusən də qeydiyyatsız telefonların necə əldə ediləcəyini araşdırmışdır.

Las Veqas Polis İdarəsinin yaydığı rəsmi məlumatlara əsasən, Livelsbergerin verdiyi suallar və süni intellektdən aldığı cavablar onun hücumu sistemli şəkildə planlaşdırmasına kömək etmişdir. Şəhərin şerifi Kevin McMahill bu hadisəni "əlamətdar dönüş nöqtəsi" kimi dəyərləndirmiş və qeyd etmişdir ki, bu, süni intellekt texnologiyalarının birbaşa cinayət məqsədləri üçün istifadə olunduğu ilk ciddi nümunə kimi tarixə düşür (United Nations, 2000).

Terrorizm müasir dövrdə cinayətkarlığın ən təhlükəli formalarından biri kimi cəmiyyətin təhlükəsizliyinə, sosial sabitliyə və beynəlxalq münasibətlərə ciddi təhlükə törədir. Onun kriminoloji xüsusiyyətləri göstərir ki, terrorizm təkcə silahlı zorakılıqla məhdudlaşmır, ideoloji, psixoloji və texnoloji vasitələrlə dəstəklənən çoxşaxəli bir hadisədir. Müasir qloballaşma və texnoloji tərəqqi terror təşkilatlarının fəaliyyət üsullarını təkmilləşdirərək, süni intellekt və rəqəmsal alətlərdən istifadə etməklə bu cinayətlərin planlaşdırılmasını və həyata keçirilməsini asanlaşdırıb.

Terrorizm cinayət hüququ ilə yanaşı, kriminoloji tədqiqatlarda da geniş yer tutur. Bu cinayət növünün xüsusiyyətləri — məqsədyönlü planlaşdırma, təşkilatlanma, ideoloji motivasiya və ictimai təhlükənin yüksək səviyyəsi ilə bağlıdır. Xüsusilə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi terror aktları bir daha təsdiqləyir ki, bu cür əməllər sistemli, məqsədli şəkildə təşkil olunur və təsadüfi xarakter daşımır (Vaniyeva, 2018).

Kriminoloji yanaşma, terrorizmin sosial, iqtisadi və psixoloji amillərlə dərin əlaqəsini ortaya qoyur və bu fenomenin yalnız hüquqi vasitələrlə deyil, həm də sosial və psixoloji profilaktikalarla qarşısının alınmasının vacibliyini göstərir. Terrorizmin qarşısını almaq üçün hüquqi və kriminoloji tədbirlərin birgə tətbiqi, həmçinin bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi vacibdir.

Kriminoloji nöqteyi-nəzərdən terrorçuların motivlərini, onların sosial mənşəyini, təşkilatlanma formalarını, iş üsullarını və hədəf istiqamətini diqqətlə təhlil etmək lazımdır. Bu təhlillər cinayətlərin qarşısının alınması və nəzarət strategiyalarının işlənib hazırlanmasında mühüm rol oynayır. Eyni zamanda, hüquq-mühafizə orqanlarının, təhlükəsizlik orqanlarının və beynəlxalq təşkilatların koordinasiyalı fəaliyyəti terrorizmə qarşı mübarizənin səmərəliliyinin əsas şərtlərindən biridir (Williams, 2017).

Terror cinayətləri, onların məqsədli xarakteri, əvvəlcədən planlaşdırılması və sistematik şəkildə həyata keçirilməsi baxımından ehtiyatsızlıq kateqoriyasına aid edilə bilməz. Bu kontekstdə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.4-cü bəndində nəzərdə tutulmuş — "ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda" müddəası, terror cinayətinin hüquqi və kriminoloji mahiyyəti ilə uyğunluq təşkil etmir (Las Vegas Cybertruck explosion suspect used ChatGPT to plan attack, 2025).

## Nəticə

Terror aktları, istər motivasiyası, istərsə də icra forması baxımından qəsdən törədilən, planlı, məqsədyönlü və təşkilatlanmış cinayətlərdir. Bu baxımdan, ehtiyatsızlıq elementi ilə terror

anlayışının bir hüquqi norma çərçivəsində birləşdirilməsi hüquq elminin əsas prinsipləri ilə ziddiyyət təşkil edir və normanın məzmun baxımından təkmilləşdirilməsinə ehtiyac yaradır.

Şəxsi elmi mövqeyimə əsaslanaraq, qeyd etməliyəm ki, bu müddəanın mövcud redaksiyada saxlanılması həm cinayət hüququnun sistematikasına, həm də terrorizm fenomeninin hüquqi təhlilinə ziddir. Fikrimcə (təklif edirəm ki) terror cinayətlərinin hüquqi tənzimlənməsi çərçivəsində bu bənd ya tamamilə ləğv edilsin, ya da qəsd formasının konkret vurğulanması ilə redaktə olunsun. Bu dəyişiklik həm hüquqi praktikada dəqiqliyin təmin olunmasına, həm də cinayət hüququnun doqmatik strukturunda konseptual aydınlığın qorunmasına xidmət edəcəkdir.

Terrorla mübarizə təkcə güc yolu ilə deyil, həm də sosial, iqtisadi və informasiya sferasında kompleks tədbirlərlə mümkündür. Bu baxımdan terrorizmin kriminoloji xüsusiyyətlərinin dərindən öyrənilməsi və risk faktorlarının müəyyən edilməsi bu təhlükənin qarşısının alınmasında əsas rol oynayır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. (1999, dekabr 30). № 787-IQ.
2. Damaskin, O. V. (2018). *Kriminologicheskiye aspekty determinatsii sovremennogo ekstremizma i terrorizma* [Monografiya]. Moskva: Yurlitinform.
3. Kapitonova, Ye. A., & Romanovskiy, G. B. (2015). *Sovremennyy terrorizm* [Monografiya]. Moskva: Yurlitinform.
4. Leonov, D. A. (2024). Kriminalisticheskaya kharakteristika terrorizma. *Molodoy uchenyy*, *(50)*, 301–304. https://moluch.ru/archive/549/120317/
5. Məmmədov, Z. (2022). Münaqişə şəraitində beynəlxalq hüququn tətbiqi məsələləri. *Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Hüquqları Jurnalı*, *4*(26), 78–89.
6. Sokolov, I. Ye. (2018). Kriminologicheskaya kharakteristika terrorizma. In *Vestnik molodogo uchenogo Kuzbasskogo instituta: sbornik nauchnykh statey* (pp. 108–110). Novokuznetsk: Kuzbasskiy institut Federal'noy sluzhby ispolneniya nakazaniy.
7. Ulez'ko, S. I. (2020). Kriminologicheskaya kharakteristika prestupnosti terroristicheskogo kharaktera. *Nauka i obrazovaniye: khozyaystvo i ekonomika; predprinimatel'stvo; pravo i upravleniye*, *(1) (116)*, 129.
8. United Nations. (2000). *International legal aspects of combating terrorism*. New York: United Nations Publications.
9. Vaniyeva, K. E. (2018). Kriminologicheskaya kharakteristika terroristicheskoy prestupnosti. *Vestnik Mezhdunarodnogo yuridicheskogo instituta*, *(3)(66)*, 117–119.
10. Williams, P. (2017). *Terrorism and international law*. Oxford: Oxford University Press.
11. Zalikhanova, L. I. (2019). Kriminologicheskaya kharakteristika ekstremizma i terrorizma: regional'nyy aspekt. *Voprosy rossiyskogo i mezhdunarodnogo prava*, *9*(1–1), 233–234.
12. Las Vegas Cybertruck explosion suspect used ChatGPT to plan attack. (2025, April 18). *ABC News*. https://abcnews.go.com/US/las-vegas-cybertruck-explosion-suspect-chatgpt-plan-attack/story?id=117428523


Daxil oldu: 05.02.2025
Qəbul edildi: 14.03.2025